# Magistr dissertasiyası üzrə hesabatlılıq və qiymətləndirmə prosedurları

# Dissertasiya prosesi üzrə hesabatlılıq

**Elmi rəhbərə dörd hesabat təqdim edilir.**

I və II hesabatlar üzrə yekun qiymətlərin cəmi "Tədqiqatlar, kommunikasiya və innovasiya" fənni

III və IV hesabatlar üzrə yekun qiymətlərin cəmi isə "Tədqiqat işinin aparılması" fənni üzrə yekun göstərici kimi qəbul edilir.

**Hesabatların qəbulunda ardıcıllığa riayət olunmalıdır:**

***daha əvvəlki hesabat verilmədiyi halda növbəti hesabatların elmi rəhbər və Kafedra tərəfindən qəbulu və qiymətləndirilməsinə yol verilmir.***

# Hesabatların elmi rəhbərə təqdim edilməsi tarixləri

- 1-ci hesabat - 15 oktyabr 2019
- 2-ci hesabat - 15 dekabr 2019
- 3-cü hesabat - 15 fevral 2020
- 4-cü hesabat - 10 aprel 2020
- Dissertasiya - 20 aprel 2020

**Magistrant hesabatları və dissertasiyanı elmi rəhbərə şəxsən və yazılı formada təqdim etməlidir.**

**Bu tarixlərdən sonra, elmi rəhbərin hesabatı və dissertasiyanı qəbul etməmək hüququ var.**

# Hesabatlara tələbatlar

1. Vaxtında verilməlidir. Gecikdirlən hesabatlar qəbul olunmur və magistrantın akademik borcu yaranır.
2. Hər bir hesabatın qiyməti 17 baldan az olmamalıdır
3. 1 və 2-ci hesabatın, eləcə də 3 və 4-cü hesabatın yekun qiymətlərinin cəmi 51 baldan az olmamalıdır.

## Hesabatların tərtibi

Şrift - Times New Roman

Ölçü - 14

Sətirarası məsafə - 1,5

Vərəq - sol 3 sm, yuxarı və aşağı 2 sm, sağ 1,5 sm.

Shifələnmə - titul vərəqindən başlamaqla aşağı sağ küncdən

# 1-ci hesabat

- dissertasiya işinin ilkin planı;
- istifadə olunacaq ədəbiyyatın ilkin siyahısı;
- tədqiqat zamanı istifadə olunacaq metodlar barədə məlumat

# Dissertasiyanın plan nümunəsi


| | | |
|---|---|---|
| | **GİRİŞ...................................................................** | **4** |
| **I fəsil.** | **BİRİNCİ FƏSLİN BAŞLIĞI......................................** | **8** |
| 1.1. | Birinci fəslin ilk alt başlığı............................................ | 8 |
| 1.2. | Birinci fəslin ikinci alt başlığı......................... | 16 |
| ...... | ............................................................................ | ..... |
| **II fəsil.** | **İKİNCİ FƏSLİN BAŞLIĞI.........................................** | **27** |
| 2.1. | İkinci fəslin birinci atbaşlığı................................... | 27 |
| 2.2. | İkinci fəslin ikinci alt başlığı................................ | 36 |
| ...... | ......................................................................... | ...... |
| **III fəsil.** | **ÜÇÜNCÜ FƏSLIN BAŞLIĞI……..............................** | **48** |
| 3.1. | Üçüncü fəslin ilk alt başlığı.......................................... | 48 |
| 3.2. | Üçüncü fəslin ikinci alt başlığı....................................... | 57 |
| ...... | ................................................................................ | ...... |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR.........................................** | **68** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT............................** | **71** |
| | ƏLAVƏLƏR......................................................... | ...... |
| | Cədvəllərin siyahısı.................................... | ...... |
| | Şəkillərin siyahısı........................................... | ...... |
| | Qrafiklərin siyahısı............................................... | ....... |

# Dissertasiyanın planına tələblər

**I fəsil.** Nəzəri-metoloji biliklərin ümumiləşdirilməsi, nəzəri yanaşmaların fərqli və ümumi xüsusiyyətləri, tədqiqatın aparılması üçün tətbiq oluna biləcək metodların təsviri və tədqiqatda istifadə olunacaq metodların seçiminin əsaslandırılması;

**II fəsil.** Seçilmiş tədqiqat metodlarından və müvafiq informasiya bazalarından istifadə etməklə qoyulmuş problem üzrə mövcud vəziyyətin, eləcə də konkret təşkilat, sahə və sfera timsalında müvafiq göstəricilərin tədqiqi (təhlili, qiymətləndirilməsi və s.), müvafiq qiymətləndirmənin aparılması, problemlərin üzə çıxarılması və s.;

**III fəsil.** Sintezin aparılması, problemlərin həlli və imkanlardan istifadə istiqamətində əsaslandırılmış təklif və mülahizələrin irəli sürülməsi.

# İstifadə olunmuş ədəbiyyat siyahısı


## Azərbaycan dilində

1. Cavadov C.C., Ağayev A.A., Qurbanov Q.Q. (2019). "İqtisadiyyatın Dövlət Tənzimlənməsi" Bakı, "Elm", 444 səh.
2. Məmmədov M.M., (2018). "Fiskal Siyasət və Milli İqtisadiyyatın Tənzimlənməsi Problemləri" (*monoqrafiya*), Bakı, "Elm". - 468 səh.
3. Əliyev Ə.Ə., "Azərbaycanda Vergilərin İqtisadi Artıma Təsiri". Azərbaycanın vergi jurnalı, 2018, №2, səh.108-120.

## İngilis dilində

1. Kruqman P. "How Did Economists Get It So Wrong?" // The New York Times. 2009 September 2.
2. Chandler Alfred D. (2002), "The Visible Hand. The Managerial Revolution in American Business". Copyright 1977 by A.D. Chandler, Printed in USA, Sixteenth printing, 608 p.
3. Agayev A.A., Aliyev A.A. "The impact of credits to GDP", Journal of Bank System. 2019, Vol.2, p.85-95

## Rus dilində

1. Гринспен А. (2010), "Эпоха Потрясений. Проблемы и перспективы мировой финансовой системы", Пер. с англ. М.:Сколькове. - 505 стр.
2. Ольсевич Ю. "Психология рынка и экономическая власть", Журнал "Вопросы Экономики", 2011, №4, стр.99-118
3. Шумпетер Й.А. (1981) "Теория Экономического Развития", М.: Прогресс, 401 стр.

# 1-ci hesabatın qiymətləndirilməsi meyarları
# (Əlavə 4)

1. Dissertasiya işinin planının mövzu ilə uyğunluğu - ______bal
2. Planın tədqiqat yönümlülüyü - ______bal
3. Planın dissertasiya tələblərinə uyğunluğu - ______bal
4. Ədəbiyyatın yetərliliyi - ______bal
5. Ədəbiyyatın yeniliyi - ______bal

**YEKUN QİYMƏT - __________bal**

**Elmi rəhbər:__________________S.A.A.**

# 2-ci hesabatın məzmunu

1. **Mövzunun aktuallığı;**
2. **Problemin qoyuluşu və öyrənilmə səviyyəsi;**
3. **Tədqiqatın məqsəd və vəzifələri;**
4. **Tədqiqatın nəzəri-metodoloji əsasları;**
5. **İstifadə olunacaq tədqiqat metodunun seçiminin əsaslandırılması;**
6. **Tədqiqatın gözlənilən elmi və praktiki nəticələri;**
7. **Bu hissənin yazılması üçün istifadə olunmuş ədəbiyyat siyahısı.**

# 2-ci hesabatın qiymətləndirilməsi meyarları (Əlavə 5)

1. Mövzunun aktuallığının, problemin qoyuluşunun, tədqiqat obyektinin və predmetinin əks etdirilməsi - ________bal
2. Tədqiqatın məqsəd və vəzifələrinin qoyuluşu - ________bal
3. Nəzəri-metodoloji bazanın və tədqiqat metodlarının seçimində istifadə olunmuş ədəbiyyatın yeniliyi - ________bal
4. Tədqiqatın nəzəri-metodoloji əsaslarının işlənmə səviyyəsi - ________bal
5. Seçilmiş tədqiqat metodlarının əsaslandırılma səviyyəsi - ________bal

**YEKUN QİYMƏT - ___________bal**

# 3-cü hesabatın məzmunu

1. **Seçilmiş tədqiqat metodlarının tətbiqi üçün informasiya bazası;**
2. **Tədqiqat metodunun tətbiqi ilə aparılan təhlil;**
3. **Tədqiqatın məhdudiyyətləri;**
4. **Təhlilin nəticələri;**
5. **Bu hissənin yazılması üçün istifadə olunmuş ədəbiyyat siyahısı.**

# 3-cü hesabatın qiymətləndirilməsi meyarları
# (Əlavə 6)

1. Tədqiqatın informasiya bazasının əhatəliliyi - ______ bal
2. Tədqiqatın informasiya bazasının yeniliyi - ______ bal
3. Seçilmiş tədqiqat metodlarından istifadə səviyyəsi - ______ bal
4. Aparılmış tədqiqatın işin nəzəri-metodiki hissəsi ilə bağlılığı - ______ bal
5. Əldə edilən nəticələrin qoyulmuş problemin həlli üçün əhəmiyyətliliyi - ______ bal

**YEKUN QİYMƏT - ___________bal**

# 4-cü hesabatın məzmunu

1. Aparılmış tədqiqat nəticəsində alınan əsaslandırılmış arqumentlər və mülahizələr;
2. Dissertasiyanın qoyulmuş probleminin həlli istiqamətində təkliflər və tövsiyələr;
3. Əldə edilmiş nəticələrin elmi və praktiki əhəmiyyəti;
4. Nəticələrin mümkün tətbiq sahələri;
5. Bu hissənin yazılmasında istifadə olunmuş ədəbiyyat siyahısı

# 4-cü hesabatın qiymətləndirilməsi meyarları (Əlavə 7)

1. Dissertasiyanın əvvəlki hissələri ilə məntiqi bağlılığının mövcudluğu - __________bal
2. Tədqiqatın nəticələrinin sintezinin (ümumiləşdirilməsi) səviyyəsi - __________bal
3. Nəticə və təkliflərin aparılmış tədqiqatlarla əsaslandırılma səviyyəsi - __________bal
4. İstifadə olunmuş mənbələrin tədqiqat üçün uyğunluğu və yetərliliyi - __________bal
5. Nəticələrin elmi-praktiki əhəmiyyəti - __________bal

**YEKUN QİYMƏT - __________bal**

# Dissertasiyanın kafedraya təhvil verilməsi

Hesabatlardan müvəffəq qiymətlər alan və akademik borcu olmayan magistrant **30 aprelədək** kafedraya aşağıdakı sənədləri verir:

1. Cildlənmiş, elmi rəhbər və özü tərəfindən imzalanmış dissertasiyanı;
2. Elmi rəhbərin müsbət rəyini;
3. Dissertasiyanın elektron versiasını (CD diskdə)

Zəruri hallarda kafedra 30 apreldən sonrakı 10 iş günü ərzində dissertasiyaların qəbulunu həyata keçirə bilər.

# İlkin müdafiə

1. **Keçirilmə tarixi - 12 may – 10 iyun aralığında**

**2. Təqdim edilən sənədlər - ərizə (əlavə 14);**

**- elmi rəhbərin rəyi;**

**- magistr dissertasiyası;**

**- referat;**

**- fərdi iş planı;**

**- dissertasiya üzrə nəşr olunmuş elmi məqalələrin surəti**